qusma, qarnın üst qisminin sağında tapılan ağrı ( qaraciyər üstü ), oynaq ağrısı, dəri qaşınması, əzələ ağrısı, sidik rənginin tündləşməsi və sarılıq (bu halda xəstənin dərisi və gözünün ağı saralar).

### Hepatit C xəstənin qaraciyərini tədricən zədələr

Xroniki mərhələyə daxil olan xəstələrin təxminən %85 -inin qaraciyəri 20 il ya da çox sonra ağır halda zədələnər və sirroza məruz qalar.

### Hepatit C-nin tanınması

Hepatit C xəstəliyi, xəstənin xəstəliyinin irəliləməsindən, onun müayinəsi və qan dənəmələrindən tanınmaqdadır. Hepatit C-yə yoluxanların qanlarında qaraciyər enzimlərinin miqdarı çoxlu hallarda yüksəkdir.

Həkim hepatit C-yə quşqulandığı zaman xəstənin qanındakı hepatit C qarşıtı olan antikorları araşdırmağa başlar.

Xəstənin qanında hepatit C qarşıtı olan antikorların olduğu halda, HCV-nin kəsin təşxisi üçün xəstənin qanı Riba və PCR dənəmələri ilə incələnməlidir. Xəstənin qanında HCV qarşıtı olan antikorların tapılması şəxsin geçmişdə bu virusla təmasda olduğunu göstərməktədir amma xəstənin qanında hepatit C genetiki maddələrin olması onun hali-hazırdə HCV-yə yoluxmasını göstərməktədir. HCV-nin muxtəlif tipləri olduğu üçün müalicədən qabaq genotip incələməsi gərəklidir. Virusları həm müalicədən qabaq həm də sonra saymaq yardımcı olabilər. Çoxlu hallarda qaraciyərin sirroz zədələnməsinə düçar olub olmadığını bilmək üçün qaraciyərdən Biopsiya (örnək alma) işləmi görülər. Həkim bunun üçün anesteziyayla, xəstənin qabурğa sümüyünün arasından bir iynə daxil edərək mikroskop altında incələmək üçün qaraciyərin toxumasından bir kiçik tikə götürər.

### HCV-yə yoluxmanı incələmək üçün hansı hallarda həkimə başvurmalıyıq?

✓Hepatit c-yə yoluxduğunuzu düşünürsünüz.
✓Hepatit C-yə yoluxma riskləriniz ( məsələn venadaxili inyeksiya ) var.
✓HCV əlamətlərinə düçarsınız ( məsələn yorğunluq, əzələ ağrısı, iştaha azalması, ürəkbulanma, tünd rəngli sidik, rəngsiz nəcis, hərarət, ya sarılıq ) və ya HCV-yə yoluxan biriylə təmasdasınız.
✓Hepatit C virusuna görə evdə etdiyiniz test pozitivdir.



### HCV-yə yoluxan şəxs hansı hallarda acilə zəng etməlidir

✓Məqəddən qan gəlmə və ya qan qusma durumlarda
✓Xəyallaşma və ya şiddətli başdolanmada

Düzənli olaraq həkiminizə başvurun çünki hepatit C özünü göstərmədən qaraciyəri zədələyəbilər. Bu xəstəliyə yoluxduğunuz zaman dərhal həkiminizlə məsləhətləşiniz. Həkim və hijyenik muşahidəsində olmalisiniz. Onlar hepatit C və müalicəsi üçün yeni tədqiqat sonuçlarını siz ilə araya qoyacaqlar və virusu başqalarına keçirməmək üçün vacib olan bilgiləri sizinlə paylaşacaqlar.

### Hepatit C müalicəsi

Hepatit C müalicəsində bəzi hallarda dərmana ehtiyac olar bəzi hallarda isə olmaz. Qaraciyər zədələnməsinin az olduğu zamanlar dərmana ehtiyac olmamaq mümkündür. Bundan əlavə bu dərmanların yan etkisinin çox olduğu və bir də bahalı olmaları, həmişə yaxşı seçənək deyil. Müalicə edən həkim müalicəni vacib görsə, bu müalicə İnterferon və Ribavirin-lə mümkün olar. İnterferon iynəsi həftə içində üç yol inyeksiya edilər. Tükətim miqdarı və müddətini həkim təyin edər. Xəstələr ən azından ayda bir yol incələnmə və analizlərin görülməsi üçün başvursunlar. Günümüzdə həftədə bir yol inyeksiya edilən Alfainterferon ( PEG ) tanıdılmışdır. Bu bahalı bir dərmandır amma effektivliyi çoxdur. Hepatit C müalicə edilən bir xəstəlikdir və dərmanlar həkimin əliylə dəqiq surətdə tükətilərsə onun yox edilməsi mümkündür.

Xəstələrdə müalicəyə cavab vermə səviyyəsi, xəstənin qaraciyərinin zədələnməsinin miqdarına, onun bədənindəki virus miqdarına və xəstənin hansı növu hepatit C virusuna yoluxmasına bağlıdır.

Altı tip hepatit C virusu vardır, onların tip 1, 2 və 3` ü dünyanın hər yerində tapılmaqdadır, tip 4 Quzey Afriqa`da görülməkdədir, tip 5 Güney Afriqa`da və tip 6 isə Asiya`da yayğındır. Tip 1`in müalicəsi tip 2 və 3`dən çətindir.



Hepatit C-nin müalicəsinin önəmli hissəsi şəxsin özünü qorumasına bağlıdır. Xəstə olan şəxs idman yapmaqla, sağlam meyvə və qida tükətməklə, sigaranı bıraxmaqla, Alkol içməkdən, uyuşdurucu maddələrdən və qaraciyəri zədələyən dərmanlardan saqınmaqla qaraciyərin zədələnməsini önləyib yaxşı duruma gələbilər.

✓Günümüzdə yeni tanıdılmış dərmanlar (məsələn Boceprevir və Teleprevir) tablet olaraq İnterferon PEG və Ribaverin ilə tükətilməkdədir. Bu dərmanlar bahalıdır.
✓İnterferon PEG iki tipdə ( Pegasys və PegIntron ) vardır.



MELDcenter

# Hepatit C virusu



www.meldcenter.com

**Dr. Seyed Müəyyid Ələvian**
**Qaraciyər və sindirim cihazı xocası və başuzmanı**
**Ortadoğu qaraciyər xəstəlikləri mərkəzlərinin qurucusu və başqanı**

## Qaraciyərin bədəndə rolu

Qaraciyər bədəninizin ən önəmli üyələrindən biridir ki yaşamınızda həyati rol oynamaqdadır. Qaraciyərin önəmli görəvi bütün yediklərinizin zərərli maddələri ayirmakdir. Qaraciyər üfunətlərə qarşı mübarizə aparar, mikrobları bədəninizdən çıxarıb sağlığınızın qorunmasına kömək edər. Qaraciyərin digər görəvlərindən isə əzələlərin hərəkətə keçirməsi üçün enerji toplama, qan şəkərinin kontrolu, kolestrol tənzimi və onlardan əlavə başqa neçə hormon və enzimin kontroludur.

## Hepatit nədir?

Hepatit luğətdə qaraciyər iltihabı anlamına gəlir və muxtəlif səbəblər o cümlədən dərmanların əksəriyyəti, muxtəlif viruslar, autoimmun və genetiki xəstəliklərdən törədiləbilər. Hepatit C bir nov qaraciyər xəstəliyidir ki hepatit C virusu əsərində meydana gələr. Hepatit C virusu qaraciyər hücrələrində yaşar və qaraciyərin iltihabına ( hepatit ) səbəb olar. Bu virus qaraciyəri sürəkli zədələr məsələn onu sirroza (qaraciyər tənballiyi), xərçəng xəstəliyinə və çatışmazlığına düçar edər. Xəstələrin çoxu bu xəstəliyə yoluxmadan qabaq xəbərsizdir və bu xəbərsizlik hepatit C-yə yoluxandan neçə il sonraya qədər də davam edəbilər. Hepatit C virusuna yoluxmuş olanlar həmən sonra bu xəstəliyin qısa və ilkin mərhələsinə keçər. Bəzi şəxslərdə bu mərhələdən sonra hepatit virusu bütünlüklə bədənlərindən çıxıb və heç vaxt onlarda qaraciyər xəstəliyi meydana gəlməz amma bu virusa yoluxanların %85-i bu xəstəliyin ağır fazına keçib uzun müddət xəstə qalarlar.

## Hepatit C yoluxma yolları nədir?

Hepatit C xəstəliyi HCV virusu tərəfindən törədilir. Bu virus hepatit C-yə yoluxan bir şəxsin qanına təmas etməklə bədəninə daxil olar. Hepatit C virusu birinin qanından başqasınınkına keçəbilər amma qucaqlamaq, öpmək, asqırmaq, öskürmək və ortaq içilən su ya yeyilən qida yoluyla keçməz. Hepatit C virusu bədəndən xaricdə və quru qan içində üç aya qədər diri qalabilər amma 100 dərəcə istilikdə olan suda qaynatmaqla 5 dəqiqənin içində aradan gedər.

## Hansı hallarda HCV-nin keçmə imkanları vardır?

✓Ortaqca tükətilən dərmanlar və qeyri-mücaz maddələrin inyeksiyasında istifadə olan şırınğa ya da digər vəsilələr. Bu metod hepatit C virusunun keçməsində çoxlu ölkələrdə geniş yayılmış bir metoddur.

✓Arxayın olmayan yerlərdə və çirkli vəsilələrlə xaldöydürmə, tatu etdirmə, qulaq dəlmə, tibb ləvazimatlari və diş həkimliyində.

✓Çirkli qan vəya organ köçdürmə

✓Xəstəliyə yoluxmuşların qanı ilə təmas edən həkimlər və hijyen mərkəzlərinin işçiləri.

✓Azacıq da olsa doğma zamanında hepatit C-yə yoluxmuş anadan övladına.

✓HCV-yə yoluxmanıza quşqunuz varsa qan köçdürmədən saqının və qan dənəmə mərkəzlərinə başvurun.

✓Nə yazıq ki bəzi idmançılar guc artıran dərmanların inyeksiyası üçün ortaq şırınğalardan istifadə edirlər və bu da yoluxmanın yollarından biridir.

Hepatit C virusunun keçməsinin ən yaygın yolu inyeksiyadır və bu da keçmənin %50 -ini təşkil edər. Hepatit C-nin cinsi yoldan keçmə imkanı hepatit B-yə görə azdır. Süd əmmək hepatit C virusunun keçməsinə səbəb olmaz.

## Eyni zamanda hepatit C və B-yə yoluxmaq mümkündürmü?

Bu iki virusun ortaq keçmə yollarını diqqətə alaraq cavab pozitivdir. İki virusa da yoluxanların çoxu inyeksiya edən bağımlılardır. HIV üfunətinin araşdırması da önəmlidir.

## HCV keçməsini önləmək üçün bir peyvənd varmı?

Hepatit C virusuna qarşı məsuniyət yaradan peyvənd indiyə qədər törədilməmişdir.

## Hansı hepatit virusu çoxlu cinsi yoldan keçər?

Hepatit C-yə görə hepatit B virusunun cinsi təmas yoluyla keçmə imkanı çoxdur. Cinsi təmasdan keçən hepatit C çox dəfələr muxtəlif cinsi partnerləri olanlarda görünər. Hepatit və AİDS virusunun keçmə yollarının birbirinə bənzədiyini diqqətə alaraq qeyd olmalıdır ki AİDS virusuna yoluxanların çoxu, eyni zamanda hepatit C və B virusuna da yoluxarlar və bu da xəstəliyin ağırlaşmasına, xəstələrin problemlərinin yüksəlməsinə və ömürlərinin qısalmasına səbəb olar.

## Birinin paltarı hepatit B və ya C-yə yoluxanların qanına bulaşsa, nə etməliyik?

Paltar və ya başqa şeylərin yoluxanın qanına bulaşma surətiylə, hərşeydən əvvəl ələ əlcək geyərək qanı soğuq su ilə yumaqdır. Virusun qurumuş qanda bir uzun zaman yaşamasından dolayı qan tamamən yuyulmalıdır. Sonra əşyaları iki yol ilə dezenfektə etmək olar:

- 20 dəqiqə müddəti içində dezenfekte edən maddələrdən məsələn ağartıcı sıvılar və xlorlu maddələrdən istifadə etmək.
- 20 ila 30 dəqiqə müddətində qaynatmaq.

## Həpatit C-yə yoluxanlar üçün evlənmə məhdudiyəti varmı?

Hepatit C virusunun keçmə yollarından biri də yoluxmuş şəxslə cinsi təmas qurmaqdır amma bunun ehtimalı azdır çünki hepatit C eşdən eşə keçməz. Beləliklə hepatitə yoluxmuş şəxs evlənib övlad sahibi olabilər amma bundan əlavə hijyenik tövsiyələri həyata keçirməlidir. Evli şəxslər övlad sahibi olmaq üçün öz həkimləriylə məsləhətləşsinlər.

## Bir daşıyıcı şəxsin evdə olması təhlükəlidirmi?

Hijyenik sadə qılavuzlar işə keçirilirsə ailə içində hepatit C virusunun keçmə ehtimalı sıfıra enər.

## Virusun keçməsini önləmək üçün hansı halların önəmli rolu var?

✓Dəridə olan yara və kəsilmələri özünüz bandaj ediniz. Ehtiyac varsa yara bandajı üçün stril əlcəklərdən istifadə ediniz.

✓Bu xəstəliyə yoluxmuşsunuzsa, qan, plazma vəya bədən orqanı köçdürməyiniz.

✓Ortaq şırınğadan istifadə etməyiniz.

✓Digər şəxslərin saqqal maşını, diş fırçası, kozmetik vəya kişisəl vəsilələrindən ortaqlaşa istifadə etməyiniz.

✓Evdə səhvdən birbirinizin diş fırçanızı istifadə etməkdən gözləyin. Diş fırçalarının saxlama yerləri hətta rənglərinin fərqli olduğunda fayda var.

✓Yadınızda saxlayın ki, hepatit C xəstəliyinin peyvəndi və kamil müalicəsi yoxdur, bu üzdən başqalarının yoluxmasını önləmək, hijyenik tövsiyələrə əməl etmək sizin öhdənizədir.

## HCV əlamətləri

İki növ hepatit C vardır. Birinci növu kəskin hepatit C adlandırılar və qısa müddət içində virus bədəndən azalar. Bu mərhələnin əlamətləri xəfif gripə bənzəyər. İkinci növu isə xroniki hepatit C adlandırılar və şəxsin uzun bir müddət ciddi bir üfunətə yoluxması hesabına gələr. Xəstələrin əksəriyyəti xroniki mərhələyə daxil olar amma hələ də heç bir əlamət göstərməzlər və bu səbəbdəndir ki çoxlu hallarda şəxsin 15 ildən də çox yoluxması tanınmamış qalmaqdadır və rastgələ olaraq hepatit C-yə yoluxma qan köçdürmədən vəya həkimin dərin incələməsindən sonra özünü göstərməkdə olar və beləliklə şəxslərdə heç bir əlamət görülməz.

## Hepatit C əlamətləri bunlar olabilər

Yorğunluq, zəif hərarət, baş ağrısı, xəfif boğaz ağrısı, iştahanın azalması, ürəkbulanma,